# Rəhbərlərə aid
# 40
# ibrətamiz kəlam

Tərcümə edən:

**Əlixan Musayev**

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

(1) İmam Buxarinin "Səhih"ində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: **"Kim öz rəhbərinin xoşagəlməz bir hərəkətini görsə, qoy buna səbir etsin. Çünki kim *müsəlman* camaatından bircə qarış kənara çıxıb ölərsə, cahilliyyət dövründə olduğu kimi ölmüş olar".** ("Səhih əl-Buxari", 7054).

(2) İmam Tirmizinin "Sunən"ində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: **"Allahdan qorxun, gündəlik beş vaxt namazınızı qılın, ramazan ayının orucunu tutun, malınızın zəkatını verin və müsəlman rəhbərinizə itaət edin, beləliklə də Rəbbinizin Cənnətinə daxil olarsınız".** ("Sunən ət-Tirmizi", 2/516; "Silsilət əl-Əhadis əs-Səhihə", 867).

(3) İmam Buxarinin "Səhih"ində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: **"Kim mənə itaət etsə, Allaha itaət etmiş olar, kim mənə asi olsa, Allaha asi olmuş olar. Habelə, kim rəhbərə itaət etsə, mənə itaət etmiş olar, kim rəhbərə asi olsa, mənə asi olmuş olar. Rəhbər, həqiqətən, bir qalxandır – onun rəhbərliyi altında vuruşulur və onun sayəsində** *düşməndən* **qorunmaq olur. Əgər o** *öz rəiyyətinə* **Allahdan qorxmağı** *və yaxşı işlər görməyi* **əmr edər, özü də ədalətli olarsa, buna görə savab qazanar. Yox, əgər günah işlər görməyi əmr edərsə, günahı onun öz boynunda qalar".** ("Səhih əl-Buxari", 2957).

(4) İmam Buxarinin "Səhih"ində rəvayət edilir ki, Ubadə ibn Samit رضي الله عنه demişdir: "Biz xoş gündə və sıxıntı anlarında *rəhbəri* dinləyib ona itaət edəcəyimizə, habelə rəhbərə qarşı çıxmayacağımıza, harada olmuş olsaq da heç

kəsin tənəsindən qorxmadan Allah yolunda haqqı təbliğ edəcəyimizə dair Peyğəmbərə ﷺ beyət etdik”. (“Səhih əl-Buxari”, 7200).

(5) İmam Əhmədin “Musnəd”ində rəvayət edilir ki, Rəsulullah ﷺ Əbu Zərə رضي الله عنه belə tövsiyə etmişdir: **“Rəhbəriniz əl və ya ayaq barmağı kəsik bir kölə olsa belə, onu eşit və itaət et...”**. (“Musnəd İmam Əhməd”, 5/171; İbn Hibban, 1718. Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəb əl-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir).

(6) İmam Buxarinin “əl-Ədəb əl-Mufrad” əsərində rəvayət edilir ki, Rəsulullah ﷺ Əbu Dərdaya رضي الله عنه belə tövsiyə etmişdir: **“Özünün haqq olduğunu bilsən belə, rəhbərlə mübahisə etmə”.** (“əl-Ədəb əl-Mufrad”, 18. Muhəmməd Nasirəddin əl-Albani bu hədisin “həsən” olduğunu demişdir).

(7) İmam Əhmədin "Musnəd"ində rəvayət edilir ki, Rəsulullah ﷺ demişdir: **"Üç xislət vardır ki, bunları özündə cəm edən möminin qəlbi əsla dönük çıxmaz: əməli səmimi-qəlbdən Allah üçün etmək, müsəlmanların rəhbərinə nəsihət etmək və müsəlman camaatdan ayrılmamaq".** ("Musnəd İmam Əhməd", 5/183; "Silsilət əl-Əhadis əs-Səhihə", 404).

(8) İmam Əbu Davudun "Sunən"ində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: **"Allah hər hansı bir başçıya xeyir nəsib etmək istədiyi zaman sədaqətli bir vəziri ona dost edər. O, yaxşılıq etməyi unutduğu zaman vəzir bunu onun yadına salar, yadına düşdükdə isə ona kömək edər. Allah ona xeyir nəsib etmək istəmədikdə isə pis bir vəziri ona dost edər. O, yaxşılıq etməyi unutduğu zaman vəzir bunu onun yadına salmaz,**

**yadına düşdükdə isə ona kömək etməz".** ("Sunən Əbu Davud", 2932; "Səhih əl-Cami", 302).

(9) İmam Əhmədin "Musnəd"ində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: **"Rəhbərə yaxşılıq edən kimsəyə Allah Qiyamət günü yaxşılıq edər, ona pislik etmək istəyən kimsəni isə Allah qiyamət günü alçaldar".** ("Musnəd İmam Əhməd", 5/42; "Silsilət əl-Əhadis əs-Səhihə", 5/376).

(10) İmam Əhmədin "Musnəd"ində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: **"Kim indi deyəcəyim beş əməldən birini yerinə yetirərsə, Allahın himayəsi altında olar: xəstəni ziyarət etmək, yaxud dəfndə iştirak etmək, yaxud Allah yolunda cihada getmək, yaxud rəhbərə kömək etmək və onu dəstəkləmək üçün onun yanında olmaq, yaxud da evdə oturub insanlara əziyyət verməmək və**

**insanların əziyyətinə məruz qalmamaq".** ("Musnəd İmam Əhməd", 5/241; əl-Albani, "Səhih əl-Cami", 3253).

(11) İmam Tirmizinin "Sunən"ində rəvayət edilir ki, Ziyad ibn Kuseyb əl-Adəvi demişdir: "İbn Amir minbərdən xütbə verərkən mən və Əbu Bəkrə رضي الله عنه onun yaxınlığında oturmuşduq. İbn Amir əyninə fasiqlərin geydiyi libasdan geyinmişdi. Bu vaxt Əbu Bilal dedi: "Əmirimizə bir baxın, fasiqlərin geydiyi libasdan geyinib". Onda Əbu Bəkrə رضي الله عنه dedi: "Sus! Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Kim Allahın yer üzünə təyin etdiyi rəhbərini gözdən salmaq istəsə, Allah onun özünü gözdən salar".**

(12) İmam Buxarinin "Səhih"ində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: **"Yeddi qisim insan vardır ki, Allah onları Öz kölgəsindən başqa heç bir kölgənin olmayacağı**

**bir gündə Öz kölgəsi altında kölgələndirəcəkdir. Bunlar: ədalətli rəhbər; Rəbbinə ibadət etməklə böyüyüb boya-başa çatmış gənc; qəlbi məscidlərə bağlı olan kişi; bir-birini Allah xatirinə sevən, Onun yolunda birləşib, Onun yolunda ayrılan iki nəfər; gözəl və zadəgan bir qadın tərəfindən zinaya çağırıldıqda: "Mən Allahdan qorxuram!"– deyən kişi; sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədən adam; və xəlvətə çəkilib Allahı yad etdikdən sonra gözləri yaşla dolan kişi [və ya qadındır]".** ("Səhih əl-Buxari", 660).

13 İmam Muslimin "Səhih"ində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: **"Rəhbərlərinizin ən xeyirliləri o kəslərdir ki, siz onları sevir, onlar da sizi sevirlər, habelə, siz onlar üçün dua edir, onlar da sizin üçün dua edirlər. Rəhbərlərinizin ən pisləri də o kəslərdir ki, siz onlara nifrət edir, onlar da sizə nifrət edirlər, habelə, siz onlara lənət**

**oxuyur, onlar da sizə lənət oxuyurlar".** Səhabələr soruşdular: "Ya Rəsulullah, qılınc çəkib onlara qarşı çıxaqmı?" Peyğəmbər ﷺ dedi: **"Xeyr, nə qədər ki, namaz qılırlar, onlara itaət edin. Belə olduğu halda, onlardan xoşagəlməyən bir şey görsəniz, onların ancaq əməlinə nifrət edin, əmrlərinə isə itaət edin".** ("Səhih Muslim", 1855).

14 İmam İbn Əbu Asimin "Sunən"ində rəvayət edilir ki, səhabələr Peyğəmbərə ﷺ dedilər: "Ya Rəsulullah, Allahdan qorxan rəhbərə itaət etmək barəsində soruşmuruq, lakin günah işlər görən rəhbərə itaət etmək barədə soruşuruq". Peyğəmbər ﷺ buyurdu: **"Allahdan qorxun, əmirə qulaq asın və ona itaət edin!"** ("Sunən İbn Əbu Asim", 1069; əl-Albani, "Zilalul-Cənnə", 1069).

15 İmam İbn Əbu Asimin "Sunən"ində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: **"Hər**

**nə olursa olsun, rəhbərlərinizə itaət edin! Əgər onlar sizə mənim təbliğ etmədiyim bir işi buyursalar, onun günahı onların boynunda olacaq və siz o günahdan uzaq olacaqsınız. Yox, əgər mənim təbliğ etdiyim bir əməli yerinə yetirməyi buyursalar, o zaman həm onlar, həm də siz savab qazanacaqsınız. Belə ki, siz Rəbbinizin hüzuruna çıxacağınız zaman deyəcəksiniz: "Ey Rəbbimiz! Sən bizə elçilər göndərdin, biz onlara itaət etdik, habelə, bizə xəlifələr və əmirlər təyin etdin, onlara da itaət etdik". Onda Qənirsiz və Uca Allah belə buyuracaq: "Doğru söylədiniz. Onların etdiyi günahlar özlərinə aiddir və siz bundan uzaqsınız".** ("Sunən İbn Əbu Asim", 1048; əl-Albani, "Zilalul-Cənnə", 1048).

**16** İmam Muslimin "Səhih"ində rəvayət edilir ki, Rəsulullah ﷺ demişdir: **"Allah sizin üç əməlinizdən razı qalır, üç əməlinizə isə qəzəbi tutur: sizin yalnız Ona ibadət edib**

**heç nəyi Ona şərik qoşmamağınızdan, hamılıqla Allahın ipindən möhkəm yapışmağınızdan və Allahın sizə nəsib etdiyi rəhbərlərə nəsihət etməyinizdən razı qalır. Dediqodu yaymağınıza, çox lazımsız sual verməyinizə və malı israf etməyinizə isə qəzəbi tutur".** ("Səhih Muslim", 5/130).

17 İmam Buxarinin "Səhih"ində rəvayət edilir ki, Rəsulullah ﷺ demişdir: **"Mən** ***sizin aranızdan getdikdən*** **sonra** ***qənimətləri paylayan kəslərin digər insanları sizdən*** **üstün tutacaqlarını görəcəksiniz".** Səhabələr soruşdular: "Belə olduğu təqdirdə bizə nə etməyi buyurursan, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: **"Siz öz öhdənizə düşən işləri yerinə yetirin və öz haqqınızı Allahdan istəyin".** ("Səhih əl-Buxari", 7052).

18 İmam Buxarinin "Səhih"ində rəvayət edilir ki, bir gün ənsardan biri Peyğəm-

bərə ﷺ dedi: "Ya Rəsulullah, filankəsə vəzifə verdiyin kimi, bəlkə mənə də vəzifə verəsən?" Peyğəmbər ﷺ dedi: **"Mən sizin aranızdan getdikdən sonra** ***qənimətləri paylayan kəslərin digər insanları sizdən*** **üstün tutacaqlarını görəcəksiniz. Hovuzumun başında mənimlə görüşənədək səbir edin!"** ("Səhih əl-Buxari", 3792).

**19** Müsəlman müsəlmanı, o cümlədən də ixtiyar sahiblərini söyməməlidir. İmam Buxari və Muslimin "Səhih"lərində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: **"Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun".** ("Səhih əl-Buxari", 6018; "Səhih Muslim", 47).

Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Müsəlman o kəsdir ki, onun dilindən və əlindən başqa müsəlmanlara zərər dəyməsin".** ("Səhih əl-Buxari", 10; "Səhih Muslim", 41).

20 İmam Muslimin "Səhih"ində rəvayət edilir ki, bir gün Sələmə ibn Yezid əl-Cofi Peyğəmbərə ﷺ dedi: "Ey Allahın Peyğəmbəri, söylə görək, əgər bizə başçılıq edəcək əmirlər bizdən öz haqlarını tələb etsələr, bizim haqlarımızı isə yesələr, o halda biz onlarla necə rəftar edək?" Peyğəmbər ﷺ cavab vermədi. Səhabə sualını bir neçə dəfə təkrar etdi, lakin Rəsulullah ﷺ cavab vermədi. Onda Əşəs ibn Qeys Sələməni kənara çəkib dedi: "Onların buyuruqlarını eşidib itaət edin. Onlar etdikləri əməllərə görə özləri cavab verəcək, siz də etdiyiniz əməllərə görə özünüz cavab verəcəksiniz". ("Səhih Muslim", 1846).

21 İmam Muslimin "Səhih"ində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: **"Hər bir müsəlmana onun həm xoşuna gəldiyi, həm də xoşuna gəlmədiyi işlərdə rəhbərin buyuruqlarını eşidib ona itaət etməsi vacibdir.**

**Yalnız Allaha asilik olan işlərdə itaət etmək olmaz”.** (“Səhih Muslim”, 4740).

(22) İmam Buxarinin “əl-Ədəb əl-Mufrad” əsərində rəvayət edilir ki, Abdullah ibn Məsud ﷺ demişdir: “Sizlərdən biri öz rəhbərinin təkəbbüründən və zülmündən qorxduğu zaman belə dua edib desin:

(( اللَّهُمَّ رَبَّ السَّمَاوَاتِ السَّبْعِ، وَرَبَّ الْعَرْشِ الْعَظِيمِ، كُنْ لِي جَارًا مِنْ فُلاَنِ بْنِ فُلاَنٍ وَأَحْزَابِهِ مِنْ خَلاَئِقِكَ، أَنْ يَفْرُطَ عَلَيَّ أَحَدٌ مِنْهُمْ أَوْ يَطْغَى، عَزَّ جَارُكَ، وَجَلَّ ثَنَاؤُكَ، وَلا إِلَهَ إِلا أَنْتَ ))

“Allahım, yeddi qat səmanın Rəbbi, böyük Ərşin Rəbbi! Filankəsin oğlu filankəsdən və yaratdıqların arasında onun köməkçilərindən mənim üçün himayəçi ol ki, onlardan heç biri mənimlə ədavət aparmasın və ya mənə təcavüz

etməsin. Sənin himayən altına aldığın kimsə qüdrətlidir. Uca təriflər Sənədir və Səndən başqa [ibadətə layiq] məbud yoxdur!" ("əl-Ədəb əl-Mufrad", 707. Muhəmməd Nasirəddin əl-Albani bu hədisin "səhih" olduğunu demişdir). Diqqət edin, İbn Məsud qılınc götürüb ona qarşı çıxmağı deyil, sadəcə dua etməyi dedi.

(23) İmam İbn Əbu Şeybənin "Musənnəf"ində rəvayət edilir ki, İbn Abbas رضي الله عنهما demişdir: "Sənə təzyiq göstərməsindən qorxduğun qəddar rəhbərin yanına getdikdə üç dəfə belə de:

(( اللَّهُ أَكْبَرُ، اللَّهُ أَعَزُّ مِنْ خَلْقِهِ جَمِيعًا، اللَّهُ أَعَزُّ مِمَّا أَخَافُ وَأَحْذَرُ، أَعُوذُ بِاللَّهِ الَّذِي لاَ إِلَهَ إِلاَّ هُوَ، الْمُمْسِكُ السَّمَاوَاتِ السَّبْعَ أَنْ يَقَعْنَ عَلَى الأَرْضِ إِلاَّ بِإِذْنِهِ، مِنْ شَرِّ عَبْدِكَ فُلاَنٍ، وَجُنُودِهِ وَأَتْبَاعِهِ وَأَشْيَاعِهِ

مِنَ الْجِنِّ وَالإِنْسِ، اللَّهُمَّ كُنْ لِي جَارًا مِنْ شَرِّهِمْ، جَلَّ ثَنَاؤُكَ، وَعَزَّ جَارُكَ، وَتَبَارَكَ اسْمُكَ، وَلاَ إِلَهَ غَيْرُكَ ))

"Allah ən Böyükdür! Allah bütün yaratdıqlarından qüdrətlidir. Allah qorxduğum və həzər etdiyim hər kəsdən qüdrətlidir. [Allahım,] Sənin filan qulunun şərindən, onun cinlərdən və insanlardan olan qoşunundan, onun köməkçilərindən və havadarlarından Özündən başqa [haqq] məbud olmayan, Öz izni olmadan yer üzərinə düşməsin deyə yeddi göyü saxlayan Allaha sığınıram! Allahım, onların şərindən məni himayə et. Uca təriflər Sənədir. Sənin himayə etdiyin kimsə qüdrətlidir. Sənin adın mübarəkdir və Səndən başqa *ibadətə layiq* məbud yoxdur!" (Bu əsəri İbn Əbu Şeybə (10/203/29787) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəb əl-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir).

Diqqət edin, İbn Abbas qılınc götürüb ona qarşı çıxmağı deyil, sadəcə dua etməyi dedi.

(24) İmam Buxarinin "Səhih"ində rəvayət edilir ki, Abdullah ibn əz-Zubeyrin ﵁ dövründə fitnə baş qaldırdığı zaman iki nəfər İbn Ömərin ﵄ yanına gəlib dedi: "Camaat əmirə qarşı üsyan edir. Sən, ey İbn Ömər, Peyğəmbərin ﷺ səhabəsisən, sənə əmirə qarşı çıxmağa mane olan nədir?" İbn Ömər dedi: "Mənim əmirə qarşı çıxmamağımın səbəbi budur ki, Allah, qardaş qanını axıtmağı haram buyurmuşdur". O iki nəfər dedi: "Məgər Allah buyurmur ki: "Fitnə aradan qalxana qədər onlarla vuruşun..."? İbn Ömər ﵄ dedi: "Biz vuruşardıq ki, fitnə aradan qalxsın və din tamamilə yalnız Allaha həsr edilsin. Siz isə fitnənin yayılması və dinin Allahdan başqasına həsr edilməsi üçün vuruşursunuz". ("Səhih əl-Buxari", 4513).

(25) İmam Beyhəqinin "Sunən"ində rəvayət edilir ki, Ənəs ibn Malik رضي الله عنه demişdir: "Muhəmmədin ﷺ səhabələrindən olan böyüklərimiz bizə belə demişlər: "Rəhbərlərinizi söyməyin, onları aldatmayın, onlara nifrət etməyin, Allahdan qorxun və səbir edin! Çünki Qiyamət artıq yaxınlaşıb". ("Sunən əl-Beyhəqi", 7523; əl-Albani, "Zilalul-Cənnə", 1015).

(26) İmam Beyhəqinin "Sunən"ində rəvayət edilir ki, Abdullah ibn Samit رضي الله عنه demişdir: "Osmanın xilafəti dövründə Əbu Zərr رضي الله عنه Şamdan Mədinəyə – Osmanın رضي الله عنه yanına gəlib dedi: "Ey möminlərin əmiri, sən elə hesab edirsən ki, mən əmirə qarşı çıxan kəslərdənəm? O kəslər ki, Quran oxuyur, lakin oxuduqları ayələr xirtdəklərindən o yana keçmir və onlar, ox ovunu dəlib keçdiyi kimi İslam dinindən çıxırlar, sonra bir daha ona

qayıtmırlar – onlar məxluqatın ən pisidirlər. Canım əlində olan Allaha and olsun ki, əgər sən mənə oturmağı əmr etsən, oturaram və yerimdən qalxmaram, mənə ayaq üstə durmağı əmr etsən, ayaqlarım taqətdən düşənədək ayaq üstə duraram. Məni bir dəvənin üzərinə bağlasan, sən özün mənim əl-ayağımı açmayınça mən onu açmağa cəhd etmərəm". Əbu Zərr bu söszləri Osmana deyəndən sonra ondan Rabzəyə getməsi üçün izin istəyir, Osman da ona izin verir. Nəhayət, Rabzəyə gəlib çatdıqda baxır ki, bir kölə camaata namaz qıldırmağa hazırlaşır. Camaat Əbu Zəri gördükdə: "Əbu Zərr gəlir!"– deyir. İmam arxaya dönüb Əbu Zəri görəndə, ona qabağa keçib camaata imamlıq etməyi təklif edir. Onda Əbu Zərr deyir: "Ən əziz dostum ﷺ mənə üç şeyi tövsiyə edib demişdir: "Sizə rəhbərlik edən əmir barmaqları kəsik həbəşi birisi olsa belə, onun əmrlərini dinlə və ona

itaət et. Habelə, xörək bişirdikdə onun suyunu çox elə və o xörəkdən qonşularına da pay ver. Və bir də, namazları vaxtında qıl!" ("Səhih İbn Hibban", 5933; "Silsilət əl-Əhadis əs-Səhihə", 1368).

27 İmam Əhmədin "Musnəd"ində rəvayət edilir ki, Səid ibn Cumhan رحمه الله demişdir: "Abdullah ibn Əbu Əufə رضي الله عنه Bəsrədə ikən mən onun yanına gəlib ona salam verdim. Məndən: "Sən kimsən?"– deyə soruşdu. Dedim: "Mən Səid ibn Cumhanam". Soruşdu: "Atan necədir?" Dedim: "Əzariqalar onu öldürdü". Dedi: "Allah əzariqalara lənət eləsin! Allah əzariqalara lənət eləsin!" Rəsulullah ﷺ bizə xəbər bildirmişdir ki, onlar Cəhənnəm köpəkləridir. Onda mən dedim: "Axı sultan onlara zülm edir, onlara təzyiq göstərir". Abdullah mənim əlimdən tutdu və onu sərt şəkildə dartıb dedi: "Vay sənin halına, ey İbn

Cumhan. Sən camaatla bir yerdə olmalısan, camaatdan ayrılmamalısan! Əgər sultan səni eşidirsə, get onun evinə və təklikdə ona nəsihət et. Əgər səndən nəsihət qəbul etsə, çox gözəl, əks halda onu yalnız burax. Axı sən onun bildiyini bilmirsən". ("Musnəd İmam Əhməd", 4/382; əl-Albani, "Səhih əl-Cami", 3253).

28 İmam Buxari və Muslimin "Səhih"lərində rəvayət edilir ki, Usamə ibn Zeyddən رضي الله عنه soruşdular: "Niyə sən gedib Osmana nəsihət etmirsən?!" O dedi: "Yoxsa siz elə düşünürsünüz ki, ona dediklərimi sizə eşitdirməliyəm?! Mən ona yalnız təklikdə nəsihət edirəm". ("Səhih əl-Buxari", 6/230; "Səhih Muslim", 4/2290).

29 İmam Əbu Nueymin "Hilyə" əsərində rəvayət edilir ki, Zibirqani رحمه الله demişdir: "Əbu Vail Şəqiq ibn Sələmənin رضي الله عنه yanında ikən Həccacı söyməyə başladım və onun pis

əməllərini xatırlatdım. Əbu Vail dedi: "Onu söymə, nə bilirsən, bəlkə o: "Allahım, məni bağışla"– demiş, Allah da onu bağışlamışdır". ("əl-Hilyə", 4/102).

30 İmam Zəhəbinin "Siyər"ində rəvayət edilir ki, Abdullah ibn əl-Mubarək ﷺ demişdir: "Alimlərə laqeydlik göstərən adam axirətini, rəhbərləri saymayan adam dünyasını, mömin qardaşlarına xor baxan adam da öz nüfuzunu itirər". Abdullah ibn əl-Mubarək ﷺ demək istəyir ki, alimlərə, rəhbərlərə və mömin insanlara xor baxan adam dünyada da, axirətdə də bədbəxt olar və ziyana uğrayar. (Zəhəbi, "Siyər Əlam ən-Nubələ", 15/425)

31 İbn Hibbanın "Rovdat əl-Uqəla" əsərində rəvayət edilir ki, Zuhri ﷺ demişdir: "Mən bu gün Hişam ibn Abdulməlikin hüzurunda olan adamın dediyi dörd kəlmə kimi

kəlmələr eşitməmişəm”. Zuhridən soruşdular: “O nə dedi ki?” Zuhri dedi: «O Hişama belə dedi: “Ey möminlərin əmiri, mənim deyəcəyim dörd kəlməni yadında saxla. Belə ki, bu kəlmələr sayəsində sən öz əməllərini islah edəcək, rəiyyətin də özlərini düzəldəcəkdir”. Hişam: “Söylə görək!”– deyə buyurdu. Adam dedi: “Gücün çatmayan bir işi yerinə yetirəcəyinə dair söz vermə. Yüksəlişin asan olması səni aldatmasın, çünki eniş çala-çuxurludur. Bil ki, əməllərin cəzası var, elə isə onların aqibətindən qorx. Və bir də qəfil başına gələ biləcək işlər var, odur ki, ehtiyatlı ol!”» (İbn Hibban, “Rovdat əl-Uqəla”, səh. 265).

32 Bağdadinin “Tarix” əsərində rəvayət edilir ki, Abdulhəmid ibn Abdullah ibn Muslim ibn Yəsar ﷺ demişdir: “İbn Sirin həbsdə ikən həbsxananın gözətçisi ona dedi: “Gecə düşdükdən sonra ailənin yanına get,

səhər açılanda gələrsən. Heç kəs bundan xəbər tutmayacaq”. İbn Sirin ona belə cavab verdi: “Sənin əmirə xəyanət etdiyin bu işdə mən sənə yardım edə bilmərəm”. (Bağdadi, “Tarix Bağdad”, 5/334).

33 Bəğəvinin “Şərh əs-Sünnə” əsərində rəvayət edilir ki, Əbu Muhəmməd əl-Bərbəhari demişdir: “Bir adamın ixtiyar sahiblərinə bəd-dua etdiyini görsən, bil ki, o, nəfsinin istək-lərinə uymuş kimsələrdəndir. Habelə, bir kimsənin Allahdan ixtiyar sahiblərinin islah olunmasını dilədiyini görsən, bil ki, o, Sünnə əhlindəndir, inşaAllah”. (Bəğəvi, “Şərh əs-Sünnə”, 116).

34 Əbu Nueymin “Hilyə” əsərində rəvayət edilir ki, Abdussaməd ibn Yezid əl-Bağdadi demişdir: «Mən Fudeyl ibn İyadın belə dediyini eşitdim: “Bilsəydim ki, mənim bir duam qəbul olacaq, onu əmir sahibinin

islah olunmasına yönəldərdim”. Ondan soruşdular: “Bunun səbəbi nədir, ey Əbu Ali?” Fudeyl dedi: “Əgər mən özüm üçün dua etsəm, onun mənə elə də böyük faydası olmaz. Lakin əmir sahibinin islah olması rəiyyətin və məmləkətin islah olmasına səbəb olar”. Yenə soruşdular: “Bu necə olur, ey Əbu Ali? Bunu bizə izah et”. Fudeyl dedi: “Məmləkətin düzəlməsi belədir ki, insanlar rəhbərin onlara qarşı haqsızlıq etməyəcəyindən əmin olduqda xarabalıqları abadlaşdırar, atılmış sahələri əkib-becərər, beləliklə də məmləkət çiçəklənər. İnsanların islah olunmasına gəlincə, əmir sahibi onların cahil təbəqəsinə nəzər salıb deyər: “Dünya işləri bunları Quran və bu kimi sair faydalı elmləri öyrənməkdən yayındırıb”. Sonra da göstəriş verər ki, bu adamları əlli-əlli, yaxud bundan çox və ya bundan az siniflərə ayırıb hücrələrə yerləşdirsinlər. Sonra savadlı bir adamı çağırıb deyər: “Sənə

kifayət qədər zəhmət haqqı veriləcək, gərək bu adamlara dini öyrədəsən. Sonra bax, gör Allah onların arasından hansına torpağı əkib-becərmək qabiliyyəti veribsə, onları işlə təmin edək". Fudeyl davam edib dedi: "Beləliklə də rəiyyət və məmləkət düzələcək". (Əbu Nueym, "Hilyət əl-Ovliya", 8/91).

35 Həccacın dövründə xəvariclərdən olan İbn əl-Əşəs və onun camaatı Həsən əl-Bəsrinin ﷺ yanına gəlib ondan Həccaca qarşı çıxmağa dair məsləhət istəyirlər. Həsən əl-Bəsri onlara belə cavab verir: "Mən sizə ona qarşı vuruşmağı məsləhət görmürəm. Çünki əgər bu, Allahın göndərdiyi bir bəladırsa, siz öz qılınclarınızla bu bəlanın qarşısını ala bilməyəcəksiniz. Yox, əgər bu bir sınaqdırsa, onda Allah Öz hökmünü verənədək səbir edin! Allah hökm verənlərin ən yaxşısıdır!" Lakin bu cavab Əşəsi qane etmir və istehza edib deyir: "Biz bu bədəsiləmi itaət edəcəyik?"

(36) İmam Qurtubinin "Təfsir"ində rəvayət edilir ki, Səhl ibn Abdullah رحمه الله demişdir: "İnsanlar rəhbərə və alimlərə hörmət etdikləri müddətcə xeyir içində olarlar. İnsanlar onlara ehtiram göstərərsə, Allah da onların həm dünya, həm də axirət həyatını firavan edər. Əks halda isə onlar özlərinin dünya və axirət həyatlarını puç edərlər" ("Təfsir Qurtubi", 5/260).

(37) İmam Beyhəqinin "Şuəb əl-İman" əsərində rəvayət edilir ki, İyas ibn Muaviyə رحمه الله demişdir: "İnsanların üç şeyə ehtiyacı var: yollarında əmin-amanlığın olması, hakimlərinin onların arasında ədalətlə hökm verməsi və bir də düşmənlə onların arasına sərhədin qoyulması. Əgər ölkə rəhbəri bütün bunları öz rəiyyəti üçün təmin edərsə, rəiyyət də öz öhdəsinə düşənləri yerinə yetirər və onun xoşagəlməz hərəkətlərinə səbir edərlər". ("Şuəb əl-İman", 10/15/7103).

(38) İmam Beyhəqinin "Şuəb əl-İman" əsərində rəvayət edilir ki, Əbu Hazim ﵀ demişdir: "Əmir nəfsinin istəklərinə uymayınca, rəiyyət izzət içində olar. Çünki rəiyyətin işlərini məhz ixtiyar sahibləri yoluna qoyur, onları yaxşı işlər görməyə rəğbətləndirir və pis əməllərdən çəkindirir". ("Şuəb əl-İman", 10/15/7109).

(39) Rəvayət edilir ki, İbn Teymiyyə ﵀ demişdir: "Allaha və Onun rəsuluna ﷺ itaət etmək vacib olduğu kimi, rəhbərlərə də itaət etmək Allahın əmrinə görə vacibdir. Allah rizasını qazanmaq üçün rəhbərə itaət edən kəs Allaha və Onun rəsuluna ﷺ itaət etmiş sayılır. Belələrinin Allah yanında çoxlu mükafatı vardır. Rəhbər var-dövlət və ya vəzifə verdikdə ona itaət edənin, əks təqdirdə isə ona asi olan kimsələrin axirətdə heç bir payı olmayacaq". ("Məcmu əl-Fətavə", 35/16-17).

40 Rəvayət edilir ki, İbn Teymiyyə ﵀ demişdir: "Alimlər, din əhli və müdrik adamlar heç kəsə rəhbərlərə asi olmaq, onları aldatmaq və onlara qarşı silah qaldırmaq xüsusunda rüxsət verməmişlər. İstər qədimdə olsun, istərsə də indiki zəmanədə, Camaat və Sünnə əhli həmişə öz itaətkarlıqları ilə tanınmışlar". ("Məcmu əl-Fətavə", 35/12).